## UNEC Rəqəmsal Texnologiyalar Departamentinin fəaliyyət istiqamətləri

- UNEC-in informasiya-kommunikasiya infrastrukturunun (serverlər, şəbəkə, təhlükəsizlik sistemləri, tətbiqlər) dayanıqlı və təhlükəsiz fəaliyyətinin təmin edilməsi.
- Rəqəmsal platformaların, informasiya sistemlərinin və elektron xidmətlərin hazırlanması, təkmilləşdirilməsi və idarə olunması.
- Şəbəkə texnologiyaları, informasiya təhlükəsizliyi, istifadəçi dəstəyi və texniki xidmət sahələrində operativ və yüksək keyfiyyətli İT xidmətlərinin göstərilməsi.
- Universitet əməkdaşları və tələbələrinin İT ehtiyaclarının qarşılanması, avadanlıqların və proqram təminatının idarə olunması.
- Tədbirlərin texniki təminatı, audio-vizual sistemlərin idarə edilməsi və onlayn/hibrid tədbirlərin texniki dəstəyi.
- Rəqəmsal transformasiya layihələrinin planlaşdırılması, innovativ texnologiyaların tətbiqi və UNEC-in rəqəmsal ekosisteminin inkişafı.
- Kiber təhlükəsizlik risklərinin idarə olunması, məlumatların qorunması və beynəlxalq standartlara uyğun təhlükəsizlik siyasətlərinin icrası.

Departament UNEC-in bütün akademik və inzibati proseslərinin rəqəmsal mühitdə effektiv, təhlükəsiz və fasiləsiz şəkildə həyata keçirilməsini təmin edərək universitetin rəqəmsal transformasiya yolunda əsas rol oynayır.